YENİ MÜSAVAT
N 177 (6205) 14 avqust 2015




Cümə söhbətləri

# Həsəd: fərdin və toplumun mərəzi

Bismillahir-Rahmənir-Rahim! İnsanı təkamülə aparan həm köməkçi əməllər, davranışlar, rəftarlar olur, həm də bu təkamüldən saxlayan, insanı inkişafdan uzaqlaşdıran davranış və əməllər də olur. Əgər birincilər insanı təkamülə aparırsa, bu yolda onun işini asanlaşdırırsa, ikincilər insanın təkamülə çatması üçün maneə olur. Belə əməl və davranışlar insanın əldə etdiklərini də aradan aparır. Ona görə də biz həyatımızda yaranan fürsətlərə iki müstəvidə diqqət etməliyik. Bir o əməl və davranışlar ki, bunlar bizim xeyirli aqibətimizə aparır - o əməllər üzərində düşünməli, onları etməkdə Allahdan tofiqat istəməliyik. İkinci tərədən isə, o əməllər ki, bizi təkamüldən saxlayır - onlar haqqında düşünməli, fikirləşməliyik. Bu sırada ibadətlər, münacatlar, tövbə zikrləri - əslində içimizdə olan xəstəliklərə, mərəzlərə nəzər salmaq üçündür.



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Həm insanın özünə, həm də topluma zərər vuran xəstəlik

Bu ağrılı xəstəliklərdən biri də paxıllıq, həsəddir. Bizim inancımızın həyatın konkret, gündəlik davranışları ilə bağlı tövsiyələri var. Nələri etmək və nələri etməməklə bağlı konkret qaydalar var. Çəkindirdiyi mövzu və məsələlərdən biri də həsəd və paxıllıqdır. İnsanı həm təkamüldən saxlayar, həm də tənəzzül etdirər, sonda ruhunu məhv elətdirər. İnsanın əldə etdiklərini zay edər. Bir keyfiyyət və xüsusiyyətdir ki, uşaqlıq vaxtından insanlarda meydana çıxar və uşaq ikən əgər o halın mənfiliyi, pisliyi uşağa izah olunmasa, onun fəsadları çatdırılmasa, belə də qalır və bütün həyatı boyu insanı içindən yeyir. Paxıllıq belə məhvedici xüsusiyyətlərdən biridir. Dağıdıcı bir məsələdir. Həm həsəd aparanın özünə mənfi təsir qoyur, onun özünü məhv edir, həm də topluma mənfi təsiri olur, topluma mənfi ovqat ötürür. O həddə qədər ki, Rəbbimiz bizə həsəd aparanların həsədindən, paxılın həsəd aparan zaman şərindən və zərərindən Ona pənah aparmağı tövsiyə edir. Qurani-Kərimin "Fələq" surəsinin 5-ci ayəsində Rəbbimiz paxılın həsəd çəkən zaman şərindən və zərərindən bəndələrin Allaha pənah aparmasını buyurur: "...Həsəd etdiyi zaman həsəd edənin şərindən".

## Qurani-Kərim həsədin zərərlərindən xəbər verir

Ayənin bəzi təfsiri çalarlarına diqqət edək. Əvvəla, həsəd aparmağın bəyənilməyən bir əməl olması üzə çıxır. Üstəlik də mənfilik yaradan bir əməl olması üzə çıxır. Buna görə insanlar ondan Allaha pənah aparır. İkincisi, həsədin, paxıllığın təsirindən qorunmağın yolunun Allaha pənah aparmaqda olduğu üzə çıxır. Üçüncü təfsiri nöqtə budur ki, Allah Təalanın Ona pənah gətirənləri bu kimi paxıllıqlardan, bu kimi həsədlərdən qorumaq gücü və qüdrəti var. Ona görə də tövsiyə olunur ki, bu kimi həsədlərdən, onun şərindən Allahá pənah aparılsın. Allahın öz bəndəsini paxılın həsədinin fəsadlarından qorumaq qüdrəti var. Bu ayəyə də iki baxımdan diqqət olunmalıdır. Birincisi, həsəd - Allahın bəyənmədiyi əməldir, pis, mənfi əməldir; bu xislət həsəd aparan, paxıllıq edən insanın özünü məhv edər. İkincisi, topluma vurduğu zərər baxımından həsədin nə qədər mənfi bir məsələ olması bəlli edilir və bunun təsirindən yalnız Allaha sığınmaqla qorunmağın mümkün olduğu vurğulanır.

## Paxıllıq ən böyük zərəri insanın öz imanına vurar

Paxıllıq - ən böyük zərər və zərbəni insanın öz imanına vurur. Paxıllıq və həsəd imanı aradan aparır. Həzrət İmam Baqir (ə) buyurur: "Alov odunu yediyi kimi, paxıllıq da imanı yeyər". İman nədir? İman bir neçə mövzunun bir yerə cəm olmasıdır. Tanıma və mərifət, Allaha etiqad, Ona daxilən, qəlbən iman gətirmək - bunlar bir yerdə cəmləşərək imanı təşkil edir. Adam var ki, bilir onun böyük missiyası var, təkamülə yetişməklə bağlı vəzifəsi var, bilir insanın özünü düzəltməsi adında mövzular var. Amma, bu bildikləri, bilgisi aktiv deyil. Bu, imanın olması halına gətirib çıxarmır. İnsan var ki, bunu bilir və buna etiqadı var. Deyir, əgər Rəbbimiz bu cür deyirsə, deməli belədir. Bu da yetərli deyil. Bir də var ki, insan bilir, etiqadı var və qəlbən, ruhən də bunu yaşayır - bax, iman budur. İki cür insan var. İnsan var ki, namazı qəzaya verir, bilir ki, günahdır, etiqadı da var, amma namazı qəzaya gedəndə hərəkətə gəlmir. İnsan var ki, onun üçün bu hal mümkün deyil. Çünki, bunu vücudən yaşayır, nə olduğunu dərk edir. İnsan var ki, yalanın pis bir şey olduğunu bilir, onun pis olmasına etiqadı da var, amma onun qəlbi yalanla bağlı bildiyinə və etiqad etdiyinə iman etmir. Onun imanı aktiv deyil. Amma, əgər bir adamın imanı aktiv olsa, yalan danışmaz. Haram musiqi olan ğina da, içki də, qumar da, həm kişilərin, həm də qadınların getimdə, davranışda iffətə riayət etməməsi də o cürdür.

Həsəd də bunlardan biridir. İmanı olan adam həsəd aparmaz, paxıl olmaz. Çünki bunun pis iş olduğunu bilir, bunun məhvediciliyinə və dağıdıcılığına etiqadı var, əməli halda bundan çəkindirən daxili haləti də var. Əgər insan paxıl olsa, həsəd çəkən olsa, bu vəziyyət onu iman halından çıxarmış olar.

## Uşaqlıqdan müalicəsinə başlanılmalı

Bu, elə bir mərəz, elə bir xəstəlikdir ki, gərək insana uşaq yaşlarından izah olunsun. Əgər uşaq ikən başa salınmasa, izah edilməsə, anladılmasa, bunun inkişafı gedəcək. Uşaq ikən insan uşaqlıqla bağlı olan məsələlərə paxıllıq edir. Sonra böyüyür, məktəbdə məktəblinin paxıllıq edəcəyi məsələlərə paxıllıq edir. Bir qədər də keçir, artıq bu sağalmaz bir xəstəliyə çevrilir. Bu dünyada edilən ilk günahlardan, ilk fəsadlardan biri paxıllıq olub. "Niyə onda o cürdür, məndə o cür deyil", "niyə Allah ona bunu verib, mənə verməyib" və s. Bunlar insanı məhv edən suallardır. İnsanın imanını kökündən yandıran mövzulardır.

## Paxıllığın nişanələri

Təbii ki, bunun nişanələri var. İnsan özünü təftiş etməlidir. Kamillik yoluna çıxan insan özünü təftiş etməli, öz durumuna nəzər salmalıdır. Deməsin ki, məndə belə bir hal yoxdur, belə hal məndə mümkün deyil. Birdən insan qəflətdə olar, heç özündən xəbəri olmaz. Heç olub ki, kiminsə nəyisə əldən çıxanda, uğursuzluğu meydana gələndə, hansısa bir imkanı, neməti əlindən çıxanda sevinmisən? Əgər insanın elə bir halı olubsa, deməli təhlükəli vəziyyətdədir. İmam Sadiq (ə) buyurur: "Loğman (ə) öz oğluna deyir: "Paxılın üç nişanəsi var. Adamın dalınca qeybət edər, üz-üzə olanda yaltaqlanar və başqalarının çətinliyinə şad olar". Əgər insan digərlərinin çətinliklərinə, problemlərinə, müşküllərinə sevinirsə, deməli onda paxıllığın əlamətləri, simptomları var.

## Paxıllıq - Allahın digərlərinə verdiyi nemətlərə görə üsyandır

Paxıllıq Allahın nemətlərindən narahat olmaq kimidir. İlahi təqdirata etiraz etmək kimidir. Həzrət Peyğəmbər (s) buyurur: "Allah Təala Musa ibni İmrana buyurmuşdur: "Həqiqətən paxıl olan şəxs - mənim nemətlərimdən narahat və bəndələrim üçün böldüyüm qismətə etiraz edəndir". Paxıl Allahın bizlərə verdiyi nemətlərdən narahat olar. Allah bizim üçün təqdir etdiyi, müəyyən etdiyi bir şeylərdən narahat olur. Paxıl insanın etirazı Allahadır, üsyanı Allahadır.

Paxıllıq insanın azadlığını əlindən alar, onu çərçivələrə, zindana salar. İmam Əli (ə) buyurur: "Paxıllıq - ruhun zindanıdır". Paxıl insanın ruhu azad olmaz, hərəkətdə olmaz, insanın ruhu ali təkamüllərə tərəf irəliləməz. Paxıllıq insan ruhunu kiçildər, məhdudlaşdırar. Paxıllıq belə bir xəstəlikdir. Həzrət Əmirəlmöminin (ə) buyurur: "Paxıllıq - ən pis xəstəlikdir". *Biz necə ki, xəstəliklərimizi müalicə edirik,* haramızsa ağrıyanda çarələrini axtarırıq, müalicəsini edirik - paxıllıq da belə bir xəstəlikdir. Bunun müalicəsi olmalıdır.

Paxıllığın yalnız insanın özünə təsirləri ilə fəsadları bitmir. Paxıllıq həm də bir çox pis işlər üçün müqəddimə rolunu oynayır. Başqa alçaq, aşağı, mənfi işlər üçün müqəddimə rolunu oynayır. Həzrət Əli (ə) buyurur: "Paxıllıq - alçaqlıqların başıdır".

## Paxıllıq ilk növbədə insanın özünü məhv edər

Çox önəmli məsələ budur ki, paxıllıq insanın özünə qayıdır. Həzrət İmam Əli (ə) buyurur: "Afərin paxıllğıa, nə ədalətli peşədir. Hamıdan əvvəl öz sahibini öldürər". Bir adam o cür olarsa, içi onu o qədər yeyər ki, axırda özünü aradan aparar. Həm bu dünyada insanı bədbəxt edər, həm də aqibəti zay olar. Həzrət Əli (ə) buyurur: "Paxıllığın səmərəsi - dünya və axirətdə bədbəxtlikdir". Həm bu insan bu dünyada, həm də axirətdə bədbəxt olar.

Əmirəlmöminin (ə) buyurur: "Paxıl, paxıllığını çəkdiyi şəxsin nemətini itirməsini özü üçün nemət bilər". Paxıl insan əgər görər ki, kiminsə əlindən nəsə çıxıb, kiminsə başına bir iş gəlib, kiminsə bir müşkülü yaranıb - elə zənn edər ki, nəsə qazanıb. İtirən başqasıdır, bu isə heç nə qazanmayıb, amma o itirəndə bu özünü qazanmış sayır. Paxıl bu deməkdir. Birinin uşağı universitetə girməz, sevinər ki, öz uşağı da girməmişdi, heç olmasa qonşunun uşağı da girmədi. Heç nə qazanmayıb, amma qazanmış kimi sevinər. Birinin imkanı aradan gedər, elə sevinər ki, sanki, bu imkan ona gəlib. Paxılın vəziyyəti bu cürdür ki, bir ailə dağılanda sevinər, elə bir ki, nəsə qazanıb. Paxıllıq belə bir dağıdıcı mərəzdir.

## Həsəddən qorunmaq üçün Allah nemətlərini təzahür etdirməmək gərəkdir

Həzrət Peyğəmbər (s) buyurur: "Öz ehtiyaclarınızı ödəməkdə məxfilikdən kömək alın. Çünki hər bir nemət sahibinə həsəd apararlar". Allahın sənə verdiyi nemətləri təzahür etmə, insanın gözlərinin qarşısına sərmə. Qurtuluşun biri də burdadır ki, nemətlər əldə edilən zaman insan onları qabartmasın. İnsanları qıcıqlandırmaq yolverilməzdir. Çünki, zərəri insanın özünə də qayıdacaq. Çünki, paxılın həsəd *çəkməsi həm də toplumu zəhərləyir.*

Məsumlardan (ə) buyurulur: "Paxıl tez əsəbiləşər və kini qəlbindən gec gedər". Adamlar var ki, qəlbindən kini getmir. Nə olursa, qəlbində kini qalır, getmir. Adamdan üzr istəyirlər, könlünü almağa çalışırlar, xeyri olmur. Adamın kini qalır. Bir də görürsən ki, insanın içində qalan kini bir neçə illər sonra təzahür edir. İnsanı məhv edən ən ciddi şeylərdən biri - kindir. Kin adamın ürəyini kiçik edər, insanın insan kimi yetişməsinə mane olar. Paxıl insan da daim kinli qalar. İnsan bu aylarda özünə nəzər salsın ki, nə qədər kinlidir. Bəzən insanların dualarının qəbul olmamasının səbəbləri bunlar olur. Bəzən bu kimi şeylər səbəb olur ki, insan tənəzzül edir.

Həzrət Əmirəlmöminin (ə) buyurur: "Həsədin ziyan və narahatlıqdan başqa səmərəsi yoxdur ki, qəlbi süst edər və bədəni xəstə edər". Həsəd insanın qəlbini süst edən və bədəni xəstə edən ziyan və narahatlıqlar yaradar. Bir çox xəstəliklərin kökündə həsəd və paxıllıq dayanır.

İmam Sadiq (ə) buyurur: "Paxıl adamdan xeyirxahlıq və nəsihət qeyri-mümkündür". Paxıl adamın xeyirxah olması, nəsihət verməsi mümkünsüzdür. Bu insanın özünün qəlbi xəstədir. Yaxşılıq adına, xeyirxahlıq adına nə etsə, nə məsləhət kimi məslələt olar, nə xeyirahlıq kimi xeyirxahlıq.

Allahım, bizləri həsəddən, paxıllıqdan, bu kimi mənfiliklərdən, mərəzdən uzaq et!

Allahım bizlərə həsədin həsəd aparmasından Sənə pənah aparmağı nəsib et!

Allahım, bizlərə dərgahında bağışlanmış olanlardan qərar ver! Amin!